*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 sentyabr 2018-ci il № 69 (2285) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

*Prezident İlham Əliyev sentyabrın 4-də Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

## Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları uğurlu nəticələr əldə ediblər

*Azərbaycan Ordusunda keçirilən "Ən yaxşı haubitsalı özüyeriyən artilleriya divizionu" adı uğrunda yarışda Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları da iştirak ediblər.*

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, plana uyğun olaraq keçirilən yarışda döyüş və döyüşə hazırlıq mərhələləri üzrə qarşıya qoyulmuş tapşırıqlar yerinə yetirilərək məqsədlərə nail olunub.

*Ön xətdən reportaj*

# “Gücümüzü xalqımızın inamından alırıq”



Xalq və ordu birliyi müstəqil Azərbaycan dövlətinin, güclü və qüdrətli ölkəmizin regionda aparıcı söz sahibinə çevrilməsində xüsusi əhəmiyyət kəsb edir. Hər dövlətin ərazi bütövlüyünü, toxunulmazlığını qoruyan güclü ordusu olmalıdır. Ordu xalqa daim arxalanırsa, xalq ordusuna güvənirsə - xalq ordunun, ordu xalqın dayağıdırsa, dövlət daha güclü, daha qüdrətli olur.

Azərbaycan Ordusu arsenalında olan ən müasir silahları, texnikaları, yüksək döyüş hazırlığına malik olan şəxsi heyəti ilə nəinki Cənubi Qafqazda, dünyada ən güclü ordular sırasındadır.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Vətənimizin igid oğulları ilə bərabər cəsur qızları da döyüşə hazırdır

*Əlahiddə Ümumqoşun Orduda qadın hərbi qulluqçuların da cəlb edildiyi növbəti kursların başa çatması münasibəti ilə buraxılış mərasimi keçirildi. Mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra zabitlərdən Ümman Nəcəfov, valideynlərdən Bəbir Yusifov, məzunlardan Xanım İbrahimova və Emin Quliyev çıxış edərək kursu bitirən gənclərə xidmətlərində uğurlar arzuladılar.*



Mərasimdə Əlahiddə Ümumqoşun Ordu Komandanı general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırıldı. Təbrik oxunduqdan sonra məzunlara sertifikatlar təqdim edildi və kurs birinciləri xatirə lövhələrinə buraxılış emblemləri vurdu. Sonda məzunların tribuna önündən təntənəli keçidi oldu.

Tədbirdən sonra hər üç kursu uğurla başa vuran məzunların bir neçəsi öz təəssüratlarını bölüşdülər. Belə ki, qadın hərbi qulluqçulardan kursu müvafiq olaraq 1-ci, 2-ci və 3-cü olaraq başa vuran Aygül Bayramova, Lamiyə Məmmədova və Türkanə Quliyeva dərslərdən danışdılar. Bildirdilər ki, sinif şəraitində hərbi-nəzəri dərslərdə, praktiki məşğələlərdə və təlim-atış çalışmalarında iştirak ediblər. Qadın hərbi qulluqçular kursu müvəffəqiyyətlə bitirərək igid oğullarımızla bərabər xidmətə başlamaqdan böyük qürur hissi keçirdiklərini qeyd etdilər.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Elmin Ağayev, Asim Məhərrəmov, Anar Nəbiyev, gizirlər Xəndan Əzimli, Pünhan Qasımlı, Murad Orucov yüksək nəticə göstərərək kursları ilk üçlükdə tamamlayıblar. Məzunlar bildirdilər ki, kurslarda əldə etdikləri nailiyyətlərlə kifayətlənməyəcək, bilik və bacarıqlarını daha da təkmilləşdirərək ən çətin döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır olacaqlar.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

# "Gücümüzü xalqımızın inamından alırıq"

**(Əvvəli 1-ci səhifədə)**

Ön xətdə yerləşən hərbi hissələrdə də əsgərlərimizin döyüş əzmini, qələbə ruhunu gördükcə əmin oluruq ki, Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Onlar da hiss edirlər ki, həmin gün uzaqda deyil, Ali Baş Komandanımız döyüş əmri verəcək, döyüşəcəklər, qələbə qazanacaqlar.

Ön xətdə xidmət edən zabitlərimizin, gizirlərimizin, əsgərlərimizin üzlərində qələbə ruhunu hiss etməkdən, yüksək mənəvi-psixoloji hazırlığın nişanəsi olan qorxmazlıq hissini duymaqdan gözəl təəssürat ola bilməz. Onların sayəsində yaxın vaxtlarda "Qarabağdan salamlar", "Kəlbəcəri azad etdik", "Şuşamıza qayıtdıq" kəlmələrini eşidəcəyik...



Səngərdəyik.

"Gün ərzində postda heç bir hadisə baş verməyib", - leytenant Səfər Hüseynquliyev hərbi hissənin zabitinə raport verir. Leytenant Səfər Hüseynquliyev 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olub. Bir müddət arxa cəbhədə təcrübə topladıqdan sonra ön xəttə təyin edilib.

- Ön xəttə yeni təyin olunmusunuz. Xidmətiniz necə keçir?

- Vətənə sevgi ilə xidmət edirik. Mən arxa bölmədə xidmət edərkən düşünürdüm ki, görəsən, nə vaxt ön mövqedə xidmət edəcəm. Bu gün buradayam. Cəsurlarla çiyin-çiyinə Vətən keşiyində dayanmaqdan şərəfli heç nə yoxdur.

"Müntəzəm olaraq şəxsi heyətlə fərdi söhbət edir, problemləri ilə maraqlanıram. Yuxarı komandanlıq da teztez posta gəlir, əsgərlərimizlə görüşür. Ona görə bu gün bölməmizdə döyüş ruhu yüksək səviyyədədir. Yaradılan şəraitdən razıyıq. Xidmətlə bağlı heç bir çətinliyimiz yoxdur. Hamımız Ali Baş Komandanımızın rəhbərliyi altında döyüşlərə girəcəyimiz günü səbirsizliklə gözləyirik."

Manqa komandiri ilə birlikdə müşahidədə dayanan əsgərlərimizlə görüşürük.

Kiçik çavuş Vüsal Əsədov Ağdam rayonunun Əlimədədli kəndində dünyaya göz açıb. Beş ildir ordu sıralarında manqa komandiri vəzifəsində xidmət edir. O bildirir ki, uşaqlığı mərmi səslərini eşitməklə keçib. "Kəndimiz düşmənə yaxın məsafədədir. O vaxtlar düşmən atəşkəsi tez-tez pozurdu. Onların atəşlərindən qorxmurduq. Valideynlərim deyirdilər ki, düşmən bizdən qorxmalıdır. Çünki onlar bizim torpaqlarımızı işğal ediblər. Bu sözlərdi məni bu gün orduya bağlayan. Mən fəxr edirəm ki, hərbi xidmətdəyəm. Hər an yuxarı komandanlığın istənilən əmrini yerinə yetirməyə hazıram."

Əsgər Kənan Əkbərlinin sözləri məni kövrəldir. Əsgər danışdıqca gözlərinin dolduğu hiss olunur. "Əslim Laçındandır, ancaq Laçını görməmişəm. Sadəcə, keçmişi özündə əks etdirən şəkillərə baxdıqca, valideynlərim oranın təbiətindən, gözəlliyindən danışdıqca gözlərimdə canlanır Laçınım. Oraların necə gözəl olduğunu təsəvvür etmək çətin deyil. Bu gün xidmətdəyəm. Ali Baş Komandanımız əmr verəndə işğalda olan torpaqlarımızı, Laçınımızı azad edəcəyik. Onda atama zəng edib deyəcəm: "Oğlunla qürur duya bilərsən, Laçını azad etdik". Bu cür sevincli xəbərləri tezliklə xalqımıza arzu edirəm. Onlar bizə güvənir. Biz gücümüzü xalqımızın inamından alırıq."

"Vətəni, bu torpaqları qorumaq həm vətəndaşlıq, həm də əsgəri borcumuzdur", - deyə əsgər Hüseyn Müslümov söhbətə qoşulur. "Güclü ordumuz var. Aprel döyüşlərində ermənilər silahlarını atıb qaçdılar. Gördülər ki, Azərbaycan Ordusu hər tapşırığı yerinə yetirmək gücündədir. Düşmənə Ali Baş Komandanımızın sözləri ilə səslənirəm: Əgər ölmək istəmirsənsə, onda torpağımızdan çıx get!"

Əsgərlər Ədalət Vahabzadə və Aslan Sədullayev də eyni fikirləri deyirlər. Qürurlanıram ki, belə əsgərlərimiz var... Qürurlanıram ki, əsgərlərimiz "Biz Azərbaycan əsgəriyik, hər zaman Ali Baş Komandanımızın əmrinə hazırıq", - deyirlər...

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

# HHQ bölmələri ilə paraşüt hazırlığı üzrə məşqlər keçirilir

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 2018-ci il üçün hazırlıq planına uyğun olaraq Hərbi Hava Qüvvələrinin bölmələri ilə paraşüt hazırlığı üzrə məşqlər keçirilir. Məşqlər zamanı şəxsi heyət tərəfindən paraşüt tullanışları üzrə müxtəlif tapşırıqlar yerinə yetirilir.

Məşqlərin keçirilməsində əsas məqsəd şəxsi heyətin paraşüt tullanışları vərdişlərinin təkmilləşdirilməsi, həmçinin onların döyüş və xüsusi hazırlıq səviyyəsinin daha da artırılmasıdır.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*7 sentyabr 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 91 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Cəfərli, Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Əsrik Cırdaxan kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Qaraqaşlı, Seyidli, Sarıcalı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təlim-metodiki toplanış keçirildi

*Məktəb rəisinin təsdiq etdiyi plana müvafiq olaraq, təlim-metodiki toplanış kafedraların professor və müəllim heyətləri ilə ildə iki dəfə kursantların məzuniyyət dövründə, semestr başlamazdan öncə keçirilir.*



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Fizuli Salahov toplanışı açaraq qeyd etdi ki, belə təlim-metodiki toplanışlar mahiyyət etibarı ilə zabit kadrları hazırlığının intensivləşməsinə xidmət edir və təlim-tədris prosesinin tərkib hissələrindəndir. Toplanışda dörd qoşun növü üzrə professor və müəllim heyəti tədris materiallarının daha yaxşı mənimsənilməsi istiqamətində fikir mübadiləsi aparır. Nəticə etibarı ilə ötən tədris dövrünə yekun vurulacaq, tədris, metodiki və tərbiyəvi işin aktual problemləri üzrə vahid baxışlar işləniləcək, metodiki məşğələlər keçiriləcək, yeni rəhbər sənədlərin tələblərinin və qoşunların təcrübəsinin tədris prosesinə tətbiqi öz əksini tapacaqdır. Toplanış döyüşə hazırolma üzrə qarşıda duran tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsini təmin edəcəkdir.

Təlim-metodiki toplanışda Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi Hərbi Təhsil İdarəsinin nümayəndələri də iştirak edir.

Təlim-metodiki toplanışın gedişini izləmək üçün kafedralarda olduq.

Məktəbin tədris şöbə rəisi polkovnik Ruslan Məmmədov bildirdi ki, təlim-metodiki toplanış 13 ixtisas yarımqrupları tərkibində fakültə və kafedra rəisləri daxil olmaqla, taktiki, atış, texniki, sürücülük, sıra, fiziki və metodiki hazırlıq üzrə keçirilir.

Hava Hücumundan Müdafiə fakültəsinin rəisi polkovnik Aydın Quliyev bildirdi ki, təlim-metodiki toplanış müddətində hava hücumundan müdafiə üzrə silah və texnikalar, onların tətbiqi qaydaları və şəxsi heyəti öyrətmək metodikası müəllim heyətinə çatdırılır. Zenit-Raket, Hava Hücumundan Müdafiə və Radio Texniki Qoşun ixtisasları üzrə kadrların hazırlanması üçün müəllim heyətinə məşğələlər keçirilir. Burada taktika, döyüş atışı, Hava Hücumundan Müdafiə vasitələrinin quruluşu və istismarı üzrə fənlər əhatə olunur. Müəllimlərin müxtəlif növ məşğələləri aparma qaydalarına yenidən baxılır, fikir mübadiləsi əsasında ən optimalı müəyyənləşdirilir və vahid metodika tətbiq edilməsi üçün tədbirlər görülür. Müəllimin dərs aparma metodikası nümunə gətirilir.

Hərbi Hava Qüvvələri fakültəsinin rəisi polkovnik Xəlil Yusubov bildirdi ki, fakültədə pilot və aviasiya mühəndisi ixtisasları üzrə tədris aparılır, mütəxəssislərin hazırlanması üçün hərtərəfli işlər görülür. Belə toplanışlar tədris prosesinin daha da yaxşılaşdırılmasında, nəticə etibarilə zabit kadrların hazırlanmasının gücləndirilməsində əhəmiyyətlidir.



Quru Qoşunları fakültəsinin Silah-Atış kafedrasında polkovnik Eyvaz Eyvazovun "Gecə şəraitində atışların təşkili və keçirilmə metodikası" mövzusunda keçdiyi dərs də mahiyyət etibarilə təlimin təşkilində metodiki tövsiyələr idi. Təlim-metodiki toplanış müddətində dərslər gün ərzində iki dəfə keçirilir. Dərslər nəzəri, daha sonra praktiki tədris edilir. Bölmələrdə olan silahların atışının yoxlanılması və normal döyüş vəziyyətinə gətirilməsi qaydası, bilik və bacarıqlar təkmilləşdirilir.

Raket və Artilleriya Qoşunları kafedrasında kursantların təhsilində önəmli rol oynayan kompüter artilleriya siniflərindən birində kafedra rəisinin müavini polkovnik-leytenant Səmədət Quliyevin "Atış və atəşin idarə edilməsinin öyrədilməsi metodikası" mövzusunda keçdiyi dərs də bu məqsəd üçündü. Kafedra rəisinin müavini qeyd etdi ki, dərs dövründə müəllimlər kursantlarla dərsi düzgün üsuldan istifadə edərək təşkil edirlər.

"Radiorele stansiyalarının öyrədilməsi metodikası" mövzusunda Rabitə və AİS kafedrasının rəisi polkovnik Əşrəf Hüseynov müəllim heyəti ilə aktiv üsulda dərs keçdi.

Hərbi Dəniz Qüvvələri fakültəsində metodiki dərslər diskussiya formasında aparıldı. Fakültənin rəisi II dərəcəli kapitan Ruslan İsayev dedi ki, Müdafiə nazirinin, Baş Qərargah rəisinin, Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin tapşırıqları əsasında biliklər yenilənir, yeniliklər öyrənilir və öyrədilir. Dərslərimizdə dünya təcrübəsindən də yararlanırıq.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Pilotlarımız ən çətin döyüş tapşırıqlarını yerinə yetirirlər

*Azərbaycan Cənubi Qafqaz regionunda maddi-texniki imkanları yüksək olan, ən çox, ən müasir döyüş təyyarəsi və zərbə helikopterinə malik ölkə sayılır. Bu baxımdan Əlahiddə Ümumqoşun Ordunun aviasiya bölmələrinin tərkibində olan hava hücum vasitələrinin sayı günü-gündən dəyişir, maddi-texniki bazası müasir tələblərə uyğun inkişaf etdirilir.*



Artıq təlimlərdə iştirakı böyük qürur doğuran və maraqla gözlənilən aviasiya texnikalarının uçuşa hazırlığı və uçuşa göndərilməsi heyətdən böyük məsuliyyət, yüksək bilik və bacarıq tələb edir. Uçuşlara başlamazdan əvvəl tapşırığın yerinə yetirilməsi üçün uçuşqabağı göstərişlər verilir, uçuşlara hazırlıq barədə məruzələr qəbul edilir. Son hesabatların aparılmasından sonra təhlükəsizlik qaydalarını çatdırmaqla uçuşların keçirilməsinə qərar verilir.

Hədəflərin məhv edilməsi, hücum edən qoşunların havadan himayəsi, dərinliyə taktiki və hava desantının atılması tapşırıqlarını layiqincə yerinə yetirən Əlahiddə Ümumqoşun Ordunun bilavasitə tabeliyindəki aviasiya bölmələrinin təlim-məşq uçuşları keçirilir. Uçuşlar zamanı SU-25 hücum təyyarələri və Mİ-35 atəş-dəstək helikopterləri ilə yer hədəflərinə müxtəlif hücumlar həyata keçirilir, hava hücumundan müdafiə vasitələrinin təsirinin dəf edilməsi üçün ən aşağı hündürlükdə mürəkkəb pilotoji manevrlər yerinə yetirilir. Gənc pilotların Mİ-17 nəqliyyat-döyüş helikopterləri ilə yüksək dağlıq ərazidə məhdud ölçülü meydançaya enmə vərdişləri təkmilləşdirilir.

Əsasən şəxsi heyətin peşəkarlıq səviyyəsinin, bilik və bacarığının daha da təkmilləşdirilməsi, manevr qabiliyyətinin artırılması məqsədi ilə aparılan uçuşlarda böyük təcrübə qazanmış hərbi qulluqçulardan Afiyəddin Məmmədov, Nəcəf Nəcəfzadə, Elçin Məmmədov, Cavad Abdullayev, Kazım Fərzəliyev, Orman Musayev, Rəşad Fərzəliyev, Etibar Qəşimov, Ayyəm Zeynalov və digərləri aviasiya texnikalarının saz vəziyyətdə saxlanılması, uğurlu uçuşları üçün əllərindən gələni əsirgəmirlər.

Təyinatına uyğun olaraq, aviasiya bölmələrinin digər bölmələrlə qarşılıqlı fəaliyyətinin uzlaşması məqsədi ilə keçirilən məşğələlərdə birgə fəaliyyət təkmilləşdirilir, şəxsi heyətin helikopterlərə minməsi, helikopterlərdən müxtəlif üsullarla enməsi, uçuş zamanı yerüstü hədəflərə müxtəlif atəş vasitələrindən atəş açma bacarıqları məşq etdirilir. Onun nəticəsidir ki, döyüş hazırlığı planına əsasən keçirilən təlimlərdə şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsində, bölmələrin uzlaşmış fəaliyyətində və praktik idarə edilməsində müsbət nəticələrə nail olunub.

Əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, Əlahiddə Ümumqoşun Ordunun digər birləşmə, hissə və bölmələri kimi aviasiya bölmələri də ən çətin döyüş tapşırıqlarını uğurla və qətiyyətlə yerinə yetirməyə hazırdır.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**



# Əsgər heyəti ilə təlim məşqləri keçirilir

*İllik plana əsasən birləşmə və hərbi hissələrdə müxtəlif ixtisaslı əsgər heyəti ilə intensiv döyüş hazırlığı məşqləri davam etdirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ümumqoşun təlim mərkəzində keçirilən məşqlərdə hərbi qulluqçular çöl şəraitində ştat silahlardan müxtəlif tapşırıqları icra edir, tank heyətləri isə zirehli texnikanın idarə olunması üzrə praktiki vərdişlərini təkmilləşdirir.

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Yarışlar Böyük Qələbəyə vəsilədi"

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, "Ən yaxşı özüyeriyən artilleriya divizionu" adı uğrunda yarışlar keçirildi.



Azərbaycan Ordusunun özüyeriyən artilleriya divizionlarının cəlb olunduğu yarışlarda tədris-material baza öyrənildi, zabitlərin və ixtisaslı mütəxəssislərin hazırlıq səviyyəsi yoxlanıldıqdan sonra heyətlər əvvəlcədən hazırlanmış atəş mövqelərini tutdu, eləcə də fərdi və qrup şəklində normativlər qəbul edildi. Yeni atəş mövqelərinə çıxarılma, əvvəlcədən müəyyən edilmiş və qəfil aşkar olunmuş hədəflərin dərhal məhv edilməsi tapşırıqları da müvəffəqiyyətlə yerinə yetirildi. Qeyd edək ki, avtomatik idarəetmə sistemləri ilə təchiz edilmiş, yüksək dəqiqliklə atəş açmaq imkanına malik olan, eyni zamanda döyüş hazırlığı səviyyəsi ilə fərqlənən divizionlar yüksək nəticələr və səhra vərdişlərini təkmilləşdirmək uğrunda yarışdılar.

Nəticələr təhlil edilərək ümumiləşdirildi və qiymətləndirildi. "Ən yaxşı özüyeriyən artilleriya divizionu" adı uğrunda keçirilən yarışın qalibləri sırasında yer alan komandalardan birinin şəxsi heyətinin təəssüratlarını öyrənmək məqsədilə "N" hərbi hissəsində olduq. Komandanın rəhbəri mayor Azad Cəfərov şəxsi heyətin yarışda iştirakından və qazandığı uğurdan söz açdı: "Yarışda iştirak edən divizionun şəxsi heyəti birinciliyi qazanmaq üçün mütəmadi olaraq məşqlər edirdilər. Həmin məşqlərin nəticəsidir ki, hərbi hissəmizə qalibiyyət sevincini bəxş edə bildik. Hərbi qulluq-



çularımızın döyüş vərdişlərinin təkmilləşdirilməsi gələcək döyüşlərdə qısa müddət ərzində yüksək nailiyyətlər əldə edəcəyimizin qarantı deməkdir. Belə yüksək səviyyənin əldə edilməsində mənəvi-psixoloji vəziyyətin yüksək olması da böyük rol oynayır. Hər birimiz Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad etməyə hazırıq".

Söhbətə qoşulan kapitan Rəşad Məmmədov bildirdi ki, ilk olaraq yarışa qatılan divizionun zabit heyətinin nəzəri bilik səviyyəsi yoxlanıldı və qiymətləndirildi. Divizion komandiri döyüş əmrini çatdırdıqdan sonra atəş mövqelərinin və komanda müşahidə məntəqələrinin tutulması həyata keçirildi. Zabit onu da qeyd etdi ki, iştirakçılardan fərdi və qrup şəklində normativlər götürüldü, hədəflərin qısa müddətə məhv edilməsi üzrə tapşırıqlar icra olundu.

"Komandamız yarışa yaxşı hazırlaşmışdı. Ordumuzda belə yarışların keçirilməsi döyüş hazırlığının inkişafına, şəxsi heyətin döyüş şəraitinə uyğunlaşmasına və gələcəkdə əldə edəcəyimiz uğurlu nəticələrə böyük təkan deməkdir. Hər birimiz yüksək əhval-ruhiyyə ilə yarışa hazırlaşırdıq. Bununla kifayətlənməməliyik, hər gün öz üzərimizdə çalışmalıyıq. Qalib olmağımızda komandanın hər üzvünün əməyi böyükdür. Yarışa hazırlıq zamanı komandirlərimiz yaranan problemləri aradan qaldırmağımız üçün əllərindən gələni əsirgəmir, hər cür köməklik göstərirdilər. İnanırıq ki, keçirilən yarışlar Böyük Qələbəyə vəsilədi. Tezliklə yarışın qalibləri Ali Baş Komandanımızın əmri ilə Böyük Qələbənin qalibləri kimi Şuşaya, Laçına, Ağdama... üçrəngli bayrağımızı sancacaqlar. Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısını daim üzərimizdə hiss edirik və bu etimada cavab olaraq alacağımız əmri qələbəylə başa çatdıracağıq, - deyə baş leytenant Məmməd Məmmədov bildirdi.

Baş leytenant Rəfael Hüseynov hərbçi ixtisasını seçməkdə valideynlərinin böyük əməyi olduğunu qeyd etdi: "Hələ uşaq vaxtlarından hərbi mundirə həvəsim böyük idi. Bunu nəzərə alaraq ixtisas seçimi zamanı valideynlərim etiraz etmədilər, məni dəstəklədilər. Yarışda uğur qazanan komandalar sırasında olmağımızla fəxr edirəm. Etiraf edim ki, komandalar arasında güclü rəqabət var idi. Ancaq biz qələbəyə gedən bütün çətinliyin öhdəsindən gəldik və uğur qazandıq. Gələcək yarışlarda da yüksək nəticələr əldə etmək üçün komandanın bütün üzvləri gücündən və iradəsindən istifadə etməlidir. Bizim üçün birinci, ikinci və ya üçüncü olmaq o qədər də önəmli deyildi. Önəmli olan Vətənimizə xidmət etməkdi. Önəmli olan ocaqlarından didərgin düşmüş soydaşlarımızın Vətən həsrətinə son qoymaqdır".

- Tabeçiliyimdə xidmət edənlərin nəzəri və praktiki biliklərinin artırılmasına üstünlük verirəm. Şəxsi heyətin asudə vaxtlarının səmərəli keçməsi üçün xidmətlə bağlı müxtəlif əyləncələrin, yarışların, intellektual



oyunların keçirilməsi prioritetlərimiz sırasındadır. Belə yarışların keçirilməsi hərbi qulluqçular arasında rəqabət yaratmaqla yanaşı, onların bilik səviyyələrinin artmasında, təcrübə mübadiləsində böyük rol oynayır. Yarışlara hazırlıq zamanı bunun bir daha şahidi oldum. Hər kəs komandirlərin təcrübəsindən, əldə olan ədəbiyyatlardan geniş istifadə edirdi. Bunun nəticəsidir ki, biz uğur qazananlar sırasında olduq. Düşünürəm ki, belə yarışlar divizionumuzun döyüş hazırlığına müsbət təsir göstərir. İnanırıq ki, tez bir zamanda Böyük Qələbənin sevincini də yaşayarıq. Bütün yarış iştirakçıları adından komandir heyətinə bizə göstərdikləri diqqət və qayğıya görə öz minnətdarlığımı bildirirəm, - deyə baş leytenant İgid Məmmədov sevincini də, qürurunu da belə bildirdi.

Gizir Urxan Qələndərov keçirilən yarışın həyatında ən yaddaqalan anlardan biri olduğunu dedi: "Çox sevinirəm ki, bu yarışın iştirakçılarından biri də mən oldum. Yaxşı bilirik ki, əsl qələbəmiz qarşıdadır. Azərbaycan Ordusunun hərbi qulluqçusu olmağımla fəxr edirəm. Nə qədər ki, torpaqlarımız bədxah düşmənlərimizin işğalındadır, Vətən qarşısında borcumuz bitməyib. "Ən yaxşı özüyeriyən artilleriya divizionu" adı uğrunda yarış çox maraqlı keçdi. Birincilik uğrunda gərgin mübarizə gedirdi. Sadəcə yüksək nailiyyət göstərən qalib gəldi".

Əsgər Vüqar Mustafayev bildirdi ki, yarışın iştirakçısı olmaq belə böyük uğurdur: "Bu, hər birimizin uğurudur. Biz də öz növbəmizdə yuxarı komandanlığın bizə göstərdiyi etimadı doğrultmaq üçün mübarizə aparırdıq. Həmişə olduğu kimi, bu dəfə də ordumuzun inkişafını və gücünü öz gözlərimizlə gördük. İnanırıq ki, tezliklə qazanacağımız Böyük Qələbənin sevincini yaşayacağıq!"

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# İşğal olunmuş ərazilərimizdə tarixi-mədəni abidələrimizin dağıdılması ilə bağlı seminar keçirilib

Sentyabrın 6-da Tətbiqi Tədqiqatlar Fondu (TTF) "Strategiya.az" saytı ilə birgə Beynəlxalq Mətbuat Mərkəzində "Azərbaycanın işğal olunmuş ərazilərində tarixi mədəniyyət abidələrinin vəziyyəti və onun dünya ictimaiyyətinə çatdırılmasının problemləri" mövzusunda seminar təşkil edib.

Fonddan AZƏRTAC-a bildiriblər ki, seminar TTF-in Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə reallaşdırdığı "Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və onun nəticələri" mövzusunda müzakirələrin təşkili" layihəsi çərçivəsində keçirilib.

"Strategiya.az" saytının baş redaktoru İbrahim Əliyev tədbirdə çıxış edərək bildirib ki, xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkə həyatının bütün sahələri ilə yanaşı, milli mədəniyyətimizə də ciddi zərbə vurub. İşğal altındakı ərazilərimizdə tarixi-mədəni abidələrimiz vəhşicəsinə dağıdılıb, mahiyyəti dəyişdirilib, tarix saxtalaşdırılıb. Bu məsələnin diqqətdə saxlanılması və dünya ictimaiyyətinə çatdırılması ən vacib məsələlərdən biridir.

Milli Məclisin deputatı Elman Nəsirov, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Təvəkkül Əliyev, fəlsəfə doktoru Azad Zeynalov, Azərbaycan İstiqlal Muzeyinin şöbə müdiri Sədi Mirseyibli mövzu ilə bağlı məruzələrlə çıxış ediblər.

Tədbirdə işğal altındakı ərazilərimizdə erməni vandalizmi nəticəsində dağıdılmış mədəniyyət abidələrimizin görüntüləri nümayiş etdirilib. Bu vəhşiliklərin Azərbaycan xalqının izini, tarixini silmək, mənfur ermənilərin tarixi torpaqlarımıza əsassız iddialarına haqq qazandırmaq məqsədi güddüyü vurğulanıb. Məhz buna görə də bu məsələnin dünya ictimaiyyətinin diqqətinə çatdırılaraq, ermənilərin çirkin niyyətlərinin və vəhşiliklərinin ifşa edilməsinin günün əsas tələbi olduğu vurğulanıb.

# Şəhid ailələrinə qayğı dövlətin həmişə diqqət mərkəzindədir

## Müdafiə Nazirliyinin nümayəndələri yeni tədris ili ərəfəsində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri ilə görüşlər keçirirlər

*Dövlət Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, həmçinin müharibə əlillərinə böyük diqqət və qayğı göstərir. Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatələnməsi təşkil edir.*





Bu gün ordumuzda da şəhid ailələrinə göstərilən diqqət və qayğı göz önündədir. Bütün bayramlarda şəhid ailələri, Vətən uğrunda sağlamlığını itirmiş qazilərimiz ziyarət olunur, sosial-məişət problemləri həll edilir. Yeni tədris ilinin başlaması münasibəti ilə Müdafiə Nazirliyinin bir qrup nümayəndəsi şəhid ailələrinə baş çəkib, onların övladlarına məktəb ləvazimatları təqdim edib.

"N" hərbi hissəsinin zabiti polkovnik-leytenant Rasim Kazımov və bir qrup hərbi qulluqçu ilə birgə aprel döyüşlərində görmə qabiliyyətini və qolunu itirmiş gizir Nəzər Əbdurrəhmanovun qonağı olduq. Aprel döyüşlərini xatırladıq. "Aprel döyüşləri, Böyük Qələbənin başlanğıcıdı. Şəhid versək də, qələbə sevinci yaşadıq, yaşatdıq. Mən bu gün qürurluyam ki, görmə qabiliyyətimi torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə itirmişəm. Təsəlli tapıram ki, bu qələbədə mənim də payım var. Vətənimə gözümlə yox, qəlbimin gözü ilə baxıram. Ali Baş Komandanımız əmr verərsə, digər qolumu da, canımı da Vətənimin azadlığı uğrunda fəda etməyə hazıram."

Nəzər onlara göstərdiyi diqqət və qayğıya görə ordu rəhbərliyinə minnətdarlığını da ifadə etdi. "Başda Ali Baş Komandanımız olmaqla, Müdafiə naziri general-polkovnik Zakir Həsənova və digər rəhbər heyətə təşəkkür edirəm. Bizlər hər zaman yuxarı komandanlığın diqqətində olmuşuq. Xidmətim zamanı göstərilən qayğını qazi olduğum zaman da hiss etdim. Bu gün övladım üçün verilən bu hədiyyələrə görə də minnətdaram."

Nəzər danışdıqca kövrəlirdi, gözləri dolurdu. Dili də, ürəyi də bir kəlmə deyirdi: "Kaş Bayraqtəpəyə, Lələtəpəyə sancılan üçrəngli bayrağımızı görə biləydim."

Nəzərlə görüşdən sonra şəhid gizir Pərvin Əliyevin ailəsini ziyarətə getdik. Xatırladaq ki, şəhidin iki övladı - oğlu Riad və qızı Aysel yadigar qalıb. Qapını şəhidin oğlu Riad açdı. Ailə üzvləri ilə tanışlıqdan sonra məktəb ləvazimatları şəhidin övladlarına verildi. Uşaqların sevinci gözlərindən aydın görünürdü. Uşaq düşüncəsi ilə dərk edirdilər ki, ataları şəhid olsa da, dövlətimiz onlardan diqqət və qayğısını əsirgəməyib. Şəhidin həyat yoldaşı göstərilən diqqətə görə təşəkkürünü bildirdi: "Pərvini itirdiyim gün elə bildim artıq təkəm, ancaq göstərilən diqqət və qayğıdan sonra anladım ki, yanılmışam. İstər dövlət başçısı, istər ordu rəhbərliyi, istərsə də Pərvinin döyüş yoldaşları bizə hər cür qayğı göstəriblər. Bu qayğı davam edir."

Şəhidin oğlu da göstərilən bu diqqətin onları sevindirdiyini qeyd etdi: "Bayramlarda qapımız döyüləndə həyəcanlanıram. Düşünürəm, görəsən, kimdir gələn. Qapını açanda hərbi formada olan insanları görəndə sevinirəm. Həmin insanlar yuxarı rəhbərliyin göstərişi ilə bizə baş çəkməyə gəlirlər. Bu gün də qapıda sizi görəndə hiss etdim ki, yenə bizim üçün gəliblər. Yanılmadım. Mən Prezidentimiz cənab İlham Əliyevə, Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənova minnətdarlığımı bildirirəm. Bizləri düşündüyü üçün hamıya təşəkkür edirəm. Və söz verirəm ki, gələcəkdə mən də xalqıma sədaqətlə xidmət edəcəm. Atamın simasında bütün şəhidlərimizin qisasını alacağıq."

Bir neçə ay əvvəl ön xətdə yerləşən hərbi hissələrimizdən birində ezamiyyətdə idim. Postda olan əsgərlərlə söhbətimizi bitirib, bölməyə qayıdırdıq. Şəxsi mənzillərdən birinin üzərində dalğalanan üçrəngli bayrağımız diqqətimi çəkmişdi. Sürücüdən avtomobili o evin qarşısında saxlamağı xahiş etmişdim. Həyətə daxil olub söhbətləşdikdən sonra bilmişdim ki, bu ev aprel şəhidimiz kapitan Mühüd Orucovun evidir. Övladlarını görə bilmədiyim üçün təəssüflənmişdim. Amma indi çox sevincliyəm. İgidimizin bizlərə yadigar qoyduğu əkizlərini - Anar və Vüqarı görəcəkdim.

Evin qapısını döydük. Qapını şəhidin həyat yoldaşı



Qumru Orucova açdı. Gəlişimizin səbəbini deyib, söhbətə başladıq. Qumru xanım da göstərilən diqqətə görə məmnunluğunu bildirdi: "Dövlətimiz hər zaman bizə qayğı ilə yanaşır, problemlərimizlə maraqlanır. Bütün şəhid ailələri bilir ki, dövlət, ordu daim onların yanındadır. Həmişə özümüzü dövlətin əhatəsində hiss edirik. Bu diqqətə görə ölkə başçısına, yuxarı komandanlığa minnətdaram."

Məktəb ləvazimatları Anar və Vüqara təqdim edildi. Dövlət başçımız, ordu rəhbərliyi şəhid ailələrini daim diqqət mərkəzində saxlayırlar. Onların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində bütün tədbirləri həyata keçirirlər. Şəhid övladları diqqətdən, qayğıdan, sevgidən kənarda qalmır.

* * *

Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində aprel döyüşlərində şəhid olan Rusif Ağayevin həyat yoldaşı Mahrux Ağayeva, övladları - Zəhra və Əli ilə görüş keçirildi. Görüşdə şəhidin övladlarına məktəb ləvazimatları hədiyyə olundu.

Üçüncü dərəcəli kapitan Fərhad İsmayılov qəhrəmanlıqdan söz açaraq dedi: "Anadan olanda heç kim dünyaya qəhrəman kimi gəlmir. Qəhrəmanlar döyüşdə doğulur". 2016-cı ilin aprel döyüşlərində Azərbaycanın qəhrəmanları sırasına gizir Rusif Ağayevin də adı yazıldı. Şəhidlərimizin ailə üzvlərinə diqqət və qayğı göstərmək, onların ruhunu əziz tutmaq hər zaman ən müqəddəs bir vəzifədir. Biz də daim Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini gözləyirik. Torpaqlarımızı işğaldan azad etmək arzusundayıq".

Gizir Rusif Ağayevin həyat yoldaşı Mahrux Ağayeva göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirdi: "Rusif Vətənimizin müdafiəsi uğrunda şəhid oldu. O, həmişə bizim qürur və iftixar mənbəyimizdir. Rusif haqqında fikirlər söyləməyə sözlər də aciz qalır. Yaşamaq üçün doğulmuşdu Rusif. Bacarıqlı hərbçi, gözəl ailə başçısı kimi xoş xatirələrlə yadda qaldı. Hələ də inanmıram yoxluğuna. İllər ötsə də, nə ürəyimdəki yanğı azalacaq, nə də ruhuna kök salan ağırlıq yüngülləşəcək. Vətənini hədsiz sevirdi, elinə, torpağına məhəbbəti bitib-tükənmirdi. Ailəsinə olduqca diqqətcil idi. Onun yoxluğu ilə barışmaq çətindir. Amma bilirəm ki, iki balamızı böyütmək mənim çiyinlərim üzərinə düşür. Dövlətimiz tərəfindən ailəmizə daim yüksək diqqət və qayğı göstərilir. Müdafiə Nazirliyinin rəhbərliyi də hər zaman problemlərimiz ilə yaxından maraqlanır. Bu cür həssas yanaşdıqları üçün təşəkkür edirəm".

Zəhra və Əli bu il birinci sinfə gedəcək. Məktəbə gedəcəkləri üçün sevincli olduqlarını desələr də, üzüntüləri baxışlarından hiss olunurdu. Zəhranın yeddi yaşı bu günlərdə tamam olacaq. Rəssamlığa böyük marağı olduğunu öyrənirəm. Arzusu gələcəkdə peşəkar rəssam olmaq, atasını boya və fırça ilə rəsmlərdə "canlandırmaqdır". Əlinin altı yaşı var. O, atasının yolunu davam etdirmək, hərbçi olmaq istəyir.

Bu qayğı, əslində, vətənpərvərlikdir, Vətənə sevgidir...

**Baş leytenant Məhəmməd NƏSİRLİ,**
**leytenant Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar C.CƏFƏROVUNDUR**

# Hər nəğmə Vətən deyəcək, qələbə deyəcək!..

## "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin nümayəndələri ön xətdə yerləşən hərbi hissədə olublar

*Vətən hər birimizin əbədi səcdəgahımızdır. İlahi sevgiyə yüksəliş Vətən sevgisiylə bağlıdır. Vətənpərvərlik Vətənə sevgi və sədaqətdir, insanın daxili zənginliyiylə bağlıdır. Hər bir insan vətənpərvərliyini əməlləri ilə, gördüyü işlərlə sübut edir və buna borcludur. Olduqca geniş məna çalarına malik olan vətənpərvərlik anlayışı Vətənə, millətə sevgi hissi, müxtəlif səviyyə və istiqamətlərdə xidmət etmək deməkdir. Əsl vətəndaş kimdir? - çalışdığı sahədə Vətənə layiqincə xidmət edənlər, bu xidməti bilavasitə mənəvi borc bilənlər...*





"N" hərbi hissəsində Müdafiə Nazirliyinin və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin birgə təşkilatçılığı ilə tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin, "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin, Tərtər rayon İcra Hakimiyyətinin nümayəndələri və hərbi hissənin şəxsi heyəti iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik Babək Səmidli tədbiri açaraq qonaqları salamladı və bildirdi ki, ordu və cəmiyyət həmişə biri-birini tamamlayıb. "Xalq orduya güvənib, ordu xalqa arxalanıb. 2016-cı ilin aprel döyüşlərində xalq ordusunun yanındaydı, düşmənin irimiqyaslı təxribatlarının qarşısını alanları qələbəyə ruhlandırırdı. Aprel döyüşləri həm də bu birliyin qələbəsi oldu.

Cəmiyyətin istənilən təbəqəsi ordumuzdan qələbə gözləyir. Əlilliyi olan uşaqları da hərbi hissəyə bu inam gətirib. Əsgərlərimiz qürurlanır ki, onlara bu qədər böyük inam var. Onlar istedadlı uşaqların təqdimatında konsert proqramını maraqla dinləyəcəklər, onların bundan da böyük, geniş proqramla işğaldan azad edəcəyimiz torpaqlarda da çıxış edəcəklərinə əmindirlər. O gün uzaqda deyil..."

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin əməkdaşı, dövlət qulluqçusu Zümrüd Səmədova qeyd etdi ki, Vətəni sevmək, onun torpağını-daşını, havasını-suyunu sevmək deməkdir. "Vətənə bağlılıq onu qorumaq deməkdir. Bunlar bir bütündə birləşəndə kamil sevgi - vətənpərvərlik yaranır. Üzərinə düşən vəzifəni ədalətlə, vicdanla yerinə yetirmək vətənpərvərlikdir. Ulu öndər Heydər Əliyev deyirdi:



"Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır." Gənclərimiz vətənpərvərdir. Biz aprel döyüşlərində də bunun şahidi olduq. Gənclərimiz aidiyyəti qurumlara müraciət edərək orduda qəhrəman oğulların sıralarında döyüşə can atırdılar. Lakin buna ehtiyac yox idi. Ordumuzun aprel zəfəri, Lələtəpəyə, Bayraqtəpəyə sancılan üçrəngli bayrağımız illərdən bəri ürəklərimizdəki həsrəti dindirdi, arzularımızın çin olacağına inamımızı gücləndirdi. İnanırıq ki, ordumuz yaxın gələcəkdə Ali Baş Komandanın əmri ilə üçrəngli bayrağımızı Qarabağda dalğalandıracaq!"

"Əlil insanlar da cəmiyyətin tam hüquqlu vətəndaşlarıdırlar", - deyə "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri Tahir Xudiyev bildirdi: - Əlillik insanın hərəkətini əngəlləyir və ya məhdudlaşdırır. Bunun Vətən eşqi, Vətən sevgisi ilə döyünən ürəyə heç bir təsiri yoxdur. Onlar da torpağımız, Vətənimiz, millətimiz naminə əllərindən gələni əsirgəmirlər. Qarşınızdakı gənclər bu günlərdə Moskvada Vətənimizi layiqincə təmsil etdilər. Bu gün burada olmanın onlara yaşatdığı hisslər izaholunmazdır. O gənclərin ən böyük arzusudur Vətən qarşısında müqəddəs borclarını ödəmək. Ancaq buna fiziki imkanları mane olur.

Bu anlarda sanki o gənclərin çöhrəsindəki sevinc ümmana çevrilmişdi. Bu qədərsiz sevgi, sevinc deyirdi ki, Vətən hamımızındı... Vətən sevgisi məhdudiyyət tanımır.

"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin Mədəniyyət şöbəsinin rəhbəri Səyad Quliyeva, İlqar Qasımov, Aygül Hümbətova, Eldar Yusubov və Həsənağa Bayramov ordumuzun regionda ən güclü ordu olması ilə qürur duyduqlarından, ordumuza sonsuz inamlarından söz açdılar. Bu inam fərdi inam deyil, xalqın inamıdır. Bu inam iyunda Bakıda keçirilən hərbi paradda da təsdiqləndi.

İstedad nə vaxtsa nəyə qadir olduğunu təsdiqləyir, fiziki qüsur istedadın təzahürünü əngəlləyə bilmir. Yaradıcılıqla bağlı istedad da, musiqi vasitəsilə təzahür edən istedad da belədir. "N" hərbi hissəsində Müdafiə Nazirliyinin və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə bunun bir daha şahidi olduq. Cavid Gözəlovun gitarada ifa etdiyi "Cənab leytenant" mahnısı hərbçilərimizə ruh yüksəkliyi yaşatdı. Dünyaya gözləriylə deyil, ürəyinin gözüylə baxan Müslüm Müslümzadə "Qarabağ şikəstəsi" ilə dinləyənlərin könüllərini aydınlatdı, Allahverdi Əhmədov yazdığı "Azərbaycan Ordusu" və "Doğma Azərbaycanım" şeirlərini səsləndirməklə qürur duyduğunu bildirdi. Şeirlər istər məzmun, istərsə də poetik baxımdan diqqəti çəkirdi. Vətənə aid olan dəyərli şeir dinləyəni həmişə duyğulandırıb. Tədbir iştirakçıları hər üç gənci ayaq üstündə alqışladı. "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin Mədəniyyət şöbəsinin rəqqaslarından Nisə Bağırlı, İlham Quliyev, Nərgiz Əliyeva, Ümid Ağadadaşov, Rüstəm Sadıqov, Aysun Əsgərova, Xədicə Şükürlü və Gülnar Babayeva bir-birindən maraqlı rəqslərlə çıxış etdi, Röya Əhmədovanın və Əhmədağa Sadıqovun ifasında səslənən mahnılar əsgərlərin qəlbini riqqətə gətirdi.

"Qarabağ bülbülləri"nin ilk ifaçılarından olan, Beynəlxalq müsabiqənin laureatı Tacir Şahmalıoğlu bildirdi ki, mən keçmiş Sovet ordusunda qulluq etmişəm. "Oğlum qüdrətli Azərbaycan Ordusunda xidmət edib. Səmimiyyətlə deyirəm ki, bu gün hərbi hissələrimizdəki şərait nəhəng imperiya ordusunda yox idi. Biz şanlı ordumuzla qürur duyuruq. Xalqımızın ordumuza güvəni sonsuzdur..."

Tacir Şahmalıoğlunun və Şahmalı Taciroğlunun nəğmələri zabit və əsgərlərimizin könlünü oxşadı. Hər nəğmə Vətən deyirdi, qələbə deyirdi. Əsgərlərin istəyi nəğmələrin melodiyasına qarışmışdı: biz qalib gələcəyik!

Polkovnik-leytenant Vüqar Şıxlinski hərbi hissədə şəxsi heyətin mədəni-asudə vaxtının səmərəli keçməsini təşkil etdiyinə görə iştirakçılara fəxri fərman təqdim etdi.

Sonda qonaqlar əsgərlərin sosial-məişət şəraiti ilə yaxından tanış oldular...

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# “TURAZ Şahini - 2018” birgə taktiki-uçuş təlimlərində ətrafı tanıma uçuşları keçirilir



Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq haqqında plana əsasən, Konya şəhərində "TURAZ Şahini - 2018" birgə taktiki-uçuş təlimləri davam edir. Təlimlərdə iştirak edən pilotlar ətrafı tanıma uçuşlarını icra ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, uçuşlardan əvvəl təyyarəçilər üçün təlimin qaydaları barədə müxtəlif brifinqlər təqdim olunub, hava şəraiti və digər texniki məsələlər müzakirə edilib.




# Bu torpaq sənindir!

*Bu gün Azərbaycan əsgəri sabaha, gələcəyə böyük inam və ümidlə baxır. Ona görə ki, onun Azərbaycan adlı Vətəni, müstəqil dövləti, müdrik və iradəli Ali Baş Komandanı var. Ona görə ki, onun qüdrətli, güclü, nizam-intizamlı, yüksək döyüş qabiliyyətinə malik ordusu və bu orduya inamla, ümidlə baxan xalqı var.*

Azərbaycan əsgəri bu inamı, bu ümidi qorumağa qadirdir. Azərbaycan əsgəri Anar Əliyev ön xətdə düşmənlə üzbəüz mövqedə Vətənin keşiyində qürurla, əzmlə dayanıb. Bu, onun baxışlarından görünür. Anarı nə soyuq, nə isti, nə qış, nə qar, nə yağış, nə çovğun, nə boran qorxudur.

"Bu torpaq mənim, sənin, onun, hamımızındır", - Anar belə deyir. - Unutmuruq ki, arxamızda anamız Azərbaycan və böyük xalqımız dayanıb. Amalımız yalnız irəli getməkdir. Bizə etibar olunan bu silah hər kəsə həvalə olunmur. Bu, çox məsuliyyətli və zəruri etimaddır. Yaxşı başa düşürəm ki, onu mənə etibarlı saxlamaq və lazım gələndə Azərbaycanımızın ərazi bütövlüyü naminə düşmənimizə qarşı istifadə etmək üçün veriblər. Bu silah Vətən torpaqlarını düşməndən qorumaq, erməni işğalında olan torpaqlarımızı azad etmək və şəhidlərimizin qisasını almaq üçün əlimizdədir.



Əsgərlərimizin düşüncələri həmişə Vətənlə, torpaqla bağlı olub. Bu düşüncələr Azərbaycan əsgərinin Hərbi anda, deməli, Vətənə sədaqəti bilmişik. Belə düşüncələr başlanğıcı 2016-cı ilin aprel döyüşləri olan Böyük Qələbə üçündü. Qürurlanırıq ki, əsgərlərimiz qələbə ruhu ilə xidmət edirlər.

Torpaq müqəddəsdir. Onun toxunulmazlığını, müqəddəsliyini qoruyub saxlamaq bizim vəzifə borcumuzdur. Bu torpaq sənindir, Vətən elə sən özünsən, Azərbaycan əsgəri. Qoru onu göz bəbəyin kimi. İçdiyin Hərbi anda sadiq qal, Azərbaycan əsgəri. Bu sənin əsgəri nizam-intizamın və doğma Vətəninizə övladlıq borcundur. Xidmətini uğurla başa vurub, valideynlərinin, doğmalarının yanına alnıaçıq, başıuca qayıt, Qoy el-oban səninlə fəxr etsin. Ali Baş Komandanın döyüş əmrinə həmişə hazır ol!

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Rusiyalı ekspert: “Şimal-Cənub” layihəsi hazırda ən vacib birgə layihədir

"Şimal-Cənub" layihəsi hazırda ən vacib birgə layihədir. Bu layihədə Azərbaycan çox böyük rol oynayır.

Tanınmış rusiyalı ekspert, Siyasi İnformasiya Mərkəzinin analitiki İvan Pyatibratov bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan dövlətinin başçısı İlham Əliyevin sentyabrın 1-də Soçiyə səfərinin və Rusiya Prezidenti Vladimir Putin ilə danışıqlarının yekununu şərh edərkən söyləyib.

O deyib: "Bu cür görüşlər ölkələrimizin liderləri üçün artıq ənənəvi hal alıb. İlham Əliyevin Rusiyaya səfəri onun Rusiya tərəfinə və şəxsən Vladimir Putinə etimadının göstəricisidir. Belə olmasaydı onların görüşü hər hansı beynəlxalq forum çərçivəsində neytral ərazidə keçirilərdi. Görüşlərin müntəzəm keçirilməsi və yeni sazişlərin imzalanması ilə başa çatması onu göstərir ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji xarakter daşıyır və uzunmüddətli planlara əsaslanır".

Ekspert Soçi görüşünün nəticələrindən söhbət açaraq deyib: "Rusiya ilə Azərbaycan arasında iqtisadi münasibətlərin inkişafı yeni təkan alıb. Azərbaycanda "QAZ" avtomobillərinin yığma sahəsinin inşa edilməsi, "Qoşadaş" qaz yatağının və Xəzər dənizinin təkindəki bir hissənin "Rosneft" və SOCAR tərəfindən birgə öyrənilməsi layihələri ölkələrimizi ən mühüm sahələrdən biri olan neft-qaz və maşınqayırma sahəsində, deməli, siyasi baxımdan da yaxınlaşdırır. Qeyd etmək lazımdır ki, bu layihələrin həyata keçirilməsi üçün illərlə vaxt tələb olunur. Bu, dövlətlərimiz arasında münasibətlərin strateji xarakterini bir daha vurğulayır".

İ.Pyatibratov "Şimal-Cənub" layihəsinin əhəmiyyətini qeyd edərək dəqiqləşdirib: "Bu cür uzunmüddətli layihələr onların iştirakçılarını öz daxili və xarici siyasətlərini əlaqələndirməyə, maksimum səmərəli əməkdaşlığa və gələcəyi birgə qurmağa sövq edir. Bununla əlaqədar, deyə bilərəm ki, indiki mərhələdə ölkələrimizin aşkar yaxınlaşması çox cəhətdən məhz bu meqalayihə üzərində işlə bağlıdır. Həmin meqalayihə Rusiya üçün geosiyasi baxımdan - siyasi və iqtisadi təsir vektorlarının şaxələndirilməsi vasitəsi kimi, Azərbaycan üçün isə iqtisadi baxımdan - öz mallarının yeni bazarlara, ilk növbədə, Avropa bazarlarına çıxarılması yolu kimi, habelə respublikanın regionda ən mühüm qovşağa çevrilməsinə kömək edən amil kimi əhəmiyyətlidir. Beləliklə, Rusiya ilə Azərbaycan arasında münasibətlərin tədricən, lakin düzgün istiqamətdə möhkəmlənməsini, ölkələrimizin müştərək gündəliyinin formalaşmasını və qarşılıqlı maraqlar nəzərə alınmaqla əlaqələndirilməsini müşahidə edirik".

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyəyə məxsus 17 helikopter Ukraynada modernləşdiriləcək



Ukrayna Türkiyə Jandarma Qüvvələrinə məxsus "Mİ-17" tipli 17 helikopterin təmiri və modernləşdirilməsi üçün elan edilən tenderdə qalib gəlib.

Tenderin qiyməti 40 milyon dollardır. Helikopterlər Ukraynanın Konotop aviatəmir zavodunda modernləşdiriləcək. Hərbi texnikaların modernləşdirilməsi istiqamətində Ukraynanın Türkiyə hökuməti ilə apardığı danışıqlar davam etdirilir.

## İspaniya “soyuq müharibə”dən sonra ilk dəfə olaraq NATO-nun ən iri təlimlərində iştirak edəcək



İspaniya Silahlı Qüvvələri "soyuq müharibə" başa çatdıqdan sonra ilk dəfə olaraq NATO-nun ən iri təlimlərində iştirak etməyə hazırlaşır.

Bu beynəlxalq təlimlər oktyabrın 25-dən noyabrın 7-dək Norveçin müxtəlif bölgələrində və sahil sularında keçiriləcək. İspaniya təlimlərə təxminən 300 piyadasını, 500 dənizçisini və Hərbi-Hava Qüvvələrinin 100 nümayəndəsini göndərir. Bununla yanaşı, İspaniya ordusu bu Skandinaviya ölkəsinə 4 "Leopard" tankı, 11 "Pisarro" zirehli transportyoru, 3 gəmi, 6 "F-18" qırıcısı və 1 "S-295" nəqliyyat təyyarəsi də göndərir.

Bu, müasir tarixdə ikinci hadisədir ki, İspaniya öz "Leopard" tanklarını sərhədlərindən kənara yollayır. İspaniya hökuməti bunu ilk dəfə 2017-ci ilin ortalarında - NATO-nun Baltik ölkələrində keçirdiyi təlimlər üçün edib.

## KXDR-Cənubi Koreya sərhədində minaların təmizlənməsinə 200 il vaxt lazımdır



KXDR və Cənubi Koreyanı ayıran demilitarizasiya zonasının minalardan tam təmizlənməsi üçün 200 il vaxt lazımdır.

Bunu Cənubi Koreyanın quru qoşunlarının nümayəndəsi bildirib. Hərbçinin sözlərinə görə, əgər ölkədə olan bütün istehkamçı bölmələr minaların təmizlənməsinə cəlb olunsa, hazırkı texnologiya səviyyəsində proses 200 ildən çox vaxt aparacaq. Silahlı qüvvələrin nümayəndəsi bu məqsədlə 241 kilometr uzunluğunda və 4 kilometr enində neytral zolaqdan ibarət demilitarizasiya zonasında Cənub və Şimalın müştərək sülh layihələrinə hazırlıq çərçivəsində minaların təmizlənməsi üzrə xüsusi mərkəzin yaradılmasını vacib sayır.

Müxtəlif hesablamalara görə, 1953-cü ildən bəri iki ölkəni ayıran demilitarizasiya zonasında 2 milyondan çox mina basdırılıb. Minalanmış sahələrin əksəriyyətinin xəritəsinin itməsi problemi bir qədər də çətinləşdirir. Bundan başqa, daşqınlar və güclü leysan yağışları hər il minaların yerdəyişməsinə səbəb olur və bu səbəbdən onların çoxunun dəqiq yeri məlum deyil. Odur ki, istehkamçılar, sözün əsl mənasında, bu ərazinin hər santimetrini axtarmalıdır.

## Pekində dünyanın ən böyük aeroportu inşa edilir



Çinin paytaxtı Pekində dünyanın ən böyük hava limanı inşa edilir.

Pekinin mərkəzindən 50 kilometr cənubda yerləşən yeni hava limanında tikinti-quraşdırma işlərinin gələn ilin iyununda başa çatdırılması nəzərdə tutulub. Pekində üçüncü hava limanı olacaq Dasin aeroportundan həm daxili, həm də beynəlxalq uçuşlar həyata keçiriləcək. Hava limanının sərnişin ötürmə gücü 2025-ci ildə 72 milyon nəfərə, yük ötürmə gücü isə 2 milyon tona çatacaq. Ümumi sahəsi bir milyon kvadratmetrə qədər genişləndiriləcək hava limanının ərazisində dünyada ilk dəfə sürətli dəmir yolu xidməti də olacaq. Aeroportun 4 uçuş-enmə zolağı ildə 620 min təyyarə qəbul edib, yola salacaq.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Hərbi qulluqçuların psixoloji sahədə maarifləndirilməsi tədbirləri keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, nazirliyin Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi tərəfindən cəbhəboyu zonada yerləşən hərbi hissələrdə şəxsi heyətlə iş üzrə zabitlərin və psixoloqların iştirakı ilə psixoloji işin təşkilinə dair tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi hissələrin psixoloqları ilə "Hərbi qulluqçunun fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi" mövzusunda keçirilən təlim-metodiki məşğələlərdə xidmətə yeni çağırılan və döyüş növbətçiliyinə yeni cəlb olunan hərbi qulluqçuların uyğunlaşma dövrünə xüsusi diqqətin yetirilməsi qeyd olunub, eləcə də hərbçilərə fərdi-psixoloji işə dair təlimat və tövsiyələr verilib.

Bundan əlavə, "Hərbi hissələrdə psixoloji işin təşkili və aparılması", "Hərbi kollektivlərdə sosial psixoloji proseslərin öyrənilməsi" və "Hərbi qulluqçularla iş zamanı psixoloji amillərin rolu" mövzularında da seminar məşğələlər keçirilib.

# Ermənistan ordusunda özbaşınalıq halları cəmiyyətdə narazılığı artırır

*Son bir ayda Ermənistan ordusunda 187 hərbçiyə qarşı hüquq pozuntusu qeydə alınıb.*

AZƏRTAC xəbər verir ki, bu barədə işğalçı ölkənin təhlükəsizlik xidmətinin yaydığı məlumatda bildirilir. Məlumatda qeyd olunub ki, "N" hərbi hissəsinin komandiri, onun müavini, əşya xidməti rəisi və əşya xidmətinin anbar rəisi quldurluq, qəddarlıq və xidmətə qarşı səhlənkarlıq nümayiş etdirməklə gənc əsgərlərə ciddi ziyan vurublar. Bundan başqa, ittihama əsasən, həmin hərbi hissənin arxa cəbhə və kommunal istismar üzrə müavini tərəfindən alayın şəxsi heyəti keyfiyyətsiz əşyalarla təmin edilib. Bu faktla bağlı da cinayət məcəlləsinə uyğun olaraq müvafiq ittiham irəli sürülüb.

Ermənistan ordusunda daha bir qalmaqal isə keyfiyyətsiz geyimlərlə bağlıdır. Bu ölkənin Müdafiə Nazirliyinin hərbi polisi və hərbçilərin sosial müdafiəsi idarəsi ən böyük hərbi hissələrdən birində əsgərlər üçün nəzərdə tutulan 10 min keyfiyyətsiz paltar aşkarlayıb. Faktla bağlı cinayət işi açılıb. Ermənistan mətbuatı bunun ilk hal olmadığını qeyd edir.

İşğalçı ölkədə əsgərlər arasında ölüm faktlarının da sayı artıb. Təkcə avqustda hərbi hissələrdə 11 belə hadisə olub. Sonuncu insident zamanı "N" hərbi hissəsində baş leytenant Karen Ovanisyan intihar edib. Partlayış, qəza və döyülmə nəticəsində isə 17 düşmən hərbçisi yaralanıb. Bununla yanaşı, korrupsiya ilə əlaqədar iki, fərariliklə əlaqədar üç, oğurluq halları ilə bağlı 13 fakt aşkarlanıb. Bütün bu hallar cəmiyyətdə narazılıqları artırır.

Hərbi hissələrdə baş verən ölüm faktları düzgün araşdırılmır. Səkkiz il əvvəl qətlə yetirilən əsgər Artur Qazaryanın ölüm işi yenidən araşdırılacaq. Hərbçinin anası İrina Qazaryan bildirir ki, Nikol Paşinyan ilə görüşdə oğlunun ölüm faktının yenidən araşdırılacağına verilən vəd icra olunmaqdadır. Ancaq o, istintaq sistemi eynilə qaldığına görə cinayət işinin tam araşdırılacağına və günahkarların aşkarlanacağına hər hansı ümid bəsləmədiyini qeyd edib. O, müstəntiqlərlə görüşərkən işin araşdırılması ilə məşğul olanların vaxtilə cinayət işinin gizlədilməsi üçün çalışan eyni şəxslərdən ibarət olduğunu deyib. Buna görə də işin ədalətli araşdırılması məqsədilə vəsatət verəcəyini bildirib.

# Naxçıvan qarnizonu üzrə hərbi qulluqçular arasında “Səmti müəyyənetmə” birinciliyi keçirildi





Naxçıvan qarnizonu üzrə hərbi qulluqçular arasında "Səmti müəyyənetmə" birinciliyi keçirildi. Əlahiddə Ümumqoşun Ordunun zabiti mayor Vahid Məmmədov birinciliyin məqsəd və şərtlərini iştirakçılara çatdıraraq uğurlar arzuladı.

15 komandadan 60 hərbi qulluqçunun gücünü sınadığı yarış gərgin mübarizə şəraitində keçdi. Birinciliyin bütün tələblərinə ən qısa zamanda əməl edənlər qalib gəldilər. Yarış hərbi qulluqçuların dözümlülüyünün yoxlanması, kompas və xəritədən istifadə bacarıqlarının təkmilləşdirilməsi, güclü idmançı və komandaların müəyyən edilməsi məqsədi ilə keçirildi. Komanda hesabında 1-ci yerdə xüsusi təyinatlılar, 2-ci yerdə motoatıcılar, 3-cü yerdə isə tankçılar qərarlaşdı. Fərdi və komanda hesabında ilk üçlüyə düşməyi bacaranlar Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən mükafatlandırıldılar.

**Leytenant Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# İdman

## Azərbaycanın iki güləşçisi Rusiyada keçirilən beynəlxalq turnirin finalına yüksəlib



Sentyabrın 6-da Rusiya Federasiyası Saxa Respublikasının paytaxtı Yakutskda Dmitri Korkinin xatirəsinə həsr olunan sərbəst güləş üzrə beynəlxalq turnir start götürüb.

Yarışda məşqçi Əşrəf Əliyevin rəhbərliyi ilə ölkəmizi yeddi pəhləvan təmsil edir. Onlardan ikisi - Pərviz İbrahimov (57 kq) və Nurməhəmməd Hacıyev (97 kq) finala yüksəlib. Digər idmançılarımız Əli Rəhimzadə (65 kq) və Hacımurad Ömərov (74 kq) bürünc medal şanslarını qoruyurlar.

## Taekvondo üzrə komandamız Rusiyadakı beynəlxalq yarışı iki qızıl və bir bürünc medalla başa vurub



Rusiyada keçirilən taekvondo üzrə G1 kateqoriyalı "Russian Open" beynəlxalq turnirinə yekun vurulub.

Azərbaycanın gənclərdən ibarət taekvondo üzrə Olimpiya komandasının iki üzvü medal qazanıb. Turnirdə 63 kiloqram çəki dərəcəsində mübarizə aparan Cavad Ağayev turnirin qalibi olub. Digər idmançımız Minayə Əkbərova (46 kq) yarımfinalda məğlub olaraq bürünc medal qazanıb.

Xatırladaq ki, yarışın ilk günündə Hatəm Həsənli (45 kq) qızıl medal qazanmışdı.

Beləliklə, turnirdə dörd idmançı ilə təmsil olunan komandamız yarışı iki qızıl və bir bürünc medalla başa vurublar.

## Azərbaycan idmançısı III Dünya Köçəri Oyunlarında qızıl medal qazanıb



Azərbaycan idmançısı Cəlal Süleymanov (60 kq) Qırğızıstanın ev sahibliyi etdiyi III Dünya Köçəri Oyunlarında milli güləş növü üzrə yarışda qızıl medal qazanıb.

Finala vəsiqə uğrunda qazaxıstanlı rəqibinə qalib gələn Cəlal Süleymanov bu gün keçirilən həlledici görüşdə Qırğızıstan təmsilçisini məğlubiyyətə uğradaraq qızıl medala sahib olub.

Beləliklə, Azərbaycan milli komandası III Dünya Köçəri Oyunlarında qazandığı medalların sayını 14-ə çatdırıb. Medalların 1-i qızıl, 5-i gümüş, 8-i bürüncdür.

## “Qarabağ”ın Avropa Liqasındakı rəqibi “Vorskla” yoxlama oyununda gücünü sınayacaq




Ağdamın "Qarabağ" futbol klubunun UEFA Avropa Liqasının qrup mərhələsindəki rəqibi Ukraynanın "Vorskla" komandası yoxlama oyununda gücünü sınayacaq.

Ukrayna Premyer Liqasında yaranmış (UPL) fasilədən istifadə edən komanda yerli "Aleksandriya" klubu ilə qarşılaşacaq. Görüş sentyabrın 8-də "Ltava" stadionunda təşkil olunacaq.

Hazırda "Vorskla" UPL-də yeddinci, "Aleksandriya" isə ikinci pillədə qərarlaşıb.

Qeyd edək ki, "Qarabağ" və "Vorskla" arasında ilk oyun oktyabrın 25-də Bakı Olimpiya Stadionunda keçiriləcək. Ukrayna təmsilçisi "Qarabağ"ı noyabrın 8-də qəbul edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 537
Nüsxə 3525